*Sosial həyat*

# İsmayıllı: Davamlı inkişaf yolunda

"Nə gözəldir, nə qəşəngdir kəndimiz" sözlərini indi İsmayıllıda hamının dilindən eşitmək olar. Bunun bir mühüm səbəbi də rayon icra hakimiyyəti aparatının, onun rəhbəri Mirdaməd Sadıqovun bütün yaşayış məntəqələrinə idarə, müəssisə, xidmət təşkilat rəhbərləri ilə birlikdə mütəmadi olaraq baş çəkməsi, adamlarla sıx ünsiyyətdə olması, onların dərdsərlərini, arzu-istəklərini dinləyib icra etməsi, iqtisadiyyatların yüksəlməsi naminə bütün qüvvələri səfərbərliyə almasıdır. Kürdmaşıda olanda bunu aydın gördük. Öncədən bildirək ki, İsmayıllının hər yerində olduğu kimi, bu kənddə də sahibkarlıq fəaliyyətinə, onların qüvvəsi ilə bir çox sosial abadlıq işlərinin görülməsinə xüsusi diqqət yetirilir və bu qüvvələrdən indi də məqsədyönlü istifadə olunur. Kürdmaşıda AzNar MMC, "Buta" MMC və Az Piland holdinq fəaliyyətdədir. AzNar Məhdud Məsuliyyətli Cəmiyyətin xətti ilə burada 150 hektar üzüm bağı salınıb, Cəmiyyətin Kürdmaşıdakı məntəqəsində 200 nəfər çalışır. Onlar kəndin sosial problemlərinin həllində yaxından iştirak edirlər. Onların qüvvəsi ilə subartezian quyusu qazılıb kürdmaşılıların istifadəsinə verilib. 200 hektar torpaq sahəsi olan "Buta" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən isə 2,2 tonluq soyuducu anbar tikilib, 100 hektarda taxıl əkib yetişdirib. Onların da işlərinin böyük əksəriyyəti kürdmaşılılar tərəfindən görülür. "Az Piland" holdinqin qüvvəsi ilə salınan 110 hektarlıq süfrə üzümündən nəinki İsmayıllılılar, respublikanın digər ünvanlarından gələnlər də bol-boluna istifadə edirlər. Kənddə bəzi sakinlərin ürək sözlərini də dinlədik. Kənd ağsaqqallar şurasının sədri Yunis Məmmədov buranın keçmişi ilə indiki firavanlığı arasında yerlə göy qədər fərq olduğunu, əmək veteranı Arif Qəmbərov Kürdmaşıda evlərin süfrələrinin zənginliyindən, təknələrin bol çörəkli olmasından, bələdiyyə sədri Tünzalə İsmayılova və inzibati ərazi dairəsi üzrə nümayəndə Saleh Əliyev isə dövlətin, rayon rəhbərliyinin diqqət və qayğısı sayəsində kəndlərində son illərdə sosial həyatın lazımi səviyyəyə qaldırıldığından danışdılar. Kənd sakinləri ilə söhbətimizdən onu da eşitdik ki, Kürdmaşının inkişafı, əhalinin rifahı gündən-günə yüksəldiyinə görədir ki, rayon rəhbəri burada görüş və qəbullar keçirəndə ictimaiyyəti daha çox narahat edən, bütün kənd sakinlərinin marağında olan məsələlərdən danışılır, kənd sakinləri bu problem və çətinliklərin aradan qaldırılmasında ellikcə köməyə hazır olduqlarını söyləyirlər. Əksər kəndlərdən fərqli Kürdmaşıda daha çox fərdi ev tikilir, fərdi təsərrüfatlar daha çox inkişaf etdirilir, daha çox məhsul götürülür. Bir sözlə, Kürdmaşıdakı həyat, əmək, yaşamaq və yaşatmaq fəallığı ona pənah gətirən heç kəsin diqqətindən yayınmır.

Orta əsr şəhər mədəniyyəti elementlərini bu gün də qoruyub saxlayan və zənginləşdirən Basqal qəsəbəsi vahid memarlıq prinsipləri əsasında salınmışdır. Burada hər küçənin, hər döngənin, hər binanın özü bir tarixdir. Onların hər birinin azı 3-5 əsr tarixi var. Basqal Azərbaycanda orta əsr şəhərsalma tarixini öyrənmək baxımından çox qiymətli abidə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi, unikal yaşayış məskənlərindəndir. Azərbaycan Respublikasının Prezidenti ilham Əliyev 2018-ci ilin oktyabrın 3-də Basqal Dövlət Tarix-Mədəniyyət Qoruğu və 2018-ci ilin 7 noyabrında qəsəbədə 432 şagird yerlik məktəb binasının tikintisi ilə bağlı sərəncamlar imzalamışdır. Bütün bunlar Basqalda daha böyük canlanma yaratmışdır. Qəsəbə əsl tikinti meydançasına çevrilmişdir. Məktəbin tikintisi başa çatmış, yeni turizm istirahət mərkəzinin tikintisinə başlanmışdır. Basqal Dövlət Tarix-Mədəniyyət Qoruğunun ərazisindəki Bazar meydanı adlanan ərazidə olan tarixi abidələrin bərpası konservasiya və rekonstraksiya işlərinə başlanacaq, bazar meydanı yenidən qurulacaq. Qəsəbə təbii qzla təmin olunmuş, qədim küçələrə çaydaşı döşənmiş, bulaqlarda bərpa işləri görülmüşdür.

Əhən kəndi ilə tanışlığımız xoş niyyətli bir təsadüflə eyni günə düşdü. Həmin gün kənddə rayon icra hakimiyyətinin başçısı Mirdaməd Sadıqovla növbəti görüş-qəbul keçirilmişdi. Görüş iştirakçılarından bir sakinlə həmsöhbət olanda aşağıdakı fikirləri eşitdik:

-Rayon rəhbəri giriş sözündə bildirdi ki, Əhənin özünüidarə və icra orqanları fəaliyyətlərində təşəbbüsakar mövqe tutur, bələdiyyə yeni layihələrdə fəal iştirak edir. Həmsöhbətim daha sonra bildirdi ki, kəndlərinin sakinlərinin təsərrüfat fəaliyyəti üçün normal şərait yaradılıb, yollara qum, çınqıl tökülüb, mərasim evinin tikintisinə başlanılıb, köhnə bina təmir olunub, klub kimi istifadəyə verilib.





Mövzumuz üçün müəyyən etdiyimiz kənd necə yaşayır sualına cavab olaraq İsmayıllının özünün, gəzdiyimiz qəsəbə və kəndlərinin, eləcə də olmayıb haqqında eşitdiyimiz yaşayış məntəqələrinin bu günkü sosial-iqtisadi inkişafında ancaq günün tələbi səviyyəsində olduğunu demək olar. Nə istəyir kənd camaatı? İstəyir ki, əkib becərməyə torpağı olsun, rahat yollarla gedib gəlsin, asudə vaxtını səmərəli keçirsin, fasiləsiz elektrik enerjisi ilə təmin olunsun. Bax, bütün bunlar İsmayıllının özündə də kəndlərində də var. Burada diqqəti çəkən və təqdir olunmalı bir də odur ki, keçmişin yadda qalan ənənələri unudulmur, vaxtı ilə ayrı-ayrı sahələrdə çalışan, bu gün təqaüddə olan və ya dünyasını dəyişənlər, ziyalılar, adlı-sanlı, hörmətli adamlar unudulmur, yada salınır, bu günümüz, sabahımız üçün nümunə göstərilir. Bax, bu məsələ Mirdaməd Sadıqov rayona rəhbər təyin olunandan sonra öz qüvvəsini tapıb, həyata vəsiqə qazanıb. Unutsaq, unudularıq devizi indi rayon icra hakimiyyətinin rəhbərliyinin fəaliyyətinin ana xəttidir. Bugünkü inkişafda, sabahkı yüksəlişdə keçmişin təcrübəli insanlarının fəal iştirakına böyük üstünlük verilir, Region və respublika qarşısında xidmətləri olan, dünyasını dəyişmiş və indi yaşamaqda davam edən insanların yubileyləri keçirilir. İlk belə tədbir basqallı müəllim, yazıçı-publisist Miryavər Hüseynova həsr olunub. 2013-cü ildə tanınmış ziyalıların, şair və yazıçıların iştirakı ilə onun 80 illik yubileyi qeyd olunub. Basqallı fizika-riyaziyyat elmləri doktoru akademik, Basqalda orta təhsil almış Maqsud Cavadovun da xatirə günü ürəklərdə iz qoyub.

İkinci Dünya müharibəsi və ondan sonrakı illərdə İsmayıllının Lahıc qəsəbəsinin əhalisi yerlərini kütləvi surətdə tərk edirdi. Evlər boşalırdı. Çünki insanların qazanc yerləri yox idi. Müəllimlə ailə qurub Lahıca köçən ləzgi qızı Gülgəz Seyfullayeva xalça toxuculuğunu qızlara öyrətməklə bir növ Lahıcı qorudu. 2019-cu ildə bu qadının da 95 illik yubileyi təntənə ilə qeyd olunub. Sosialist Əməyi Qəhrəmanı Nikolay Nikitinin uzun illər Nazirlər Sovetində işləmiş Rza İsmayılovun xatirə günləri, uzun illər təhsil şöbəsinə rəhbərlik etmiş Fərman Bəşirovun 70 illik, əvvəllər rayon ağsaqqallar şurasının sədri olmuş İnqilab Həsənovun 80 illik yubileyi qeyd edilib. İnsanlar rayon rəhbərliyindən diqqət və qayğı gördükcə, onların ictimai fəallıqları daha da artır, yetişən nəslin tərbiyəsində iştirakları daha səmərəli xarakter alır. Vaxtilə icraiyyə komitəsinin sədri olmuş Gözəl Osmanova, raykom katibi işləmiş Hüsniyə Osamnova, "Azərpoçt" filialının direktoru vəzifəsini daşımış Qəhrəman Osmanov, veteran jurnalistlər Lətifə Əliyeva, Valeh Salehov, rayon icra hakimiyyətindən pensiyaya çıxmış Adil Şirəliyev, Raqib Məmmədov, çoxsaylı təhsil veteranları rayon icra hakimiyyətinin keçirdiyi bütün tədbirlərin iştirakçısı olurlar. Belə münasibət həm insana verilən dəyər, həm də yeni nəsillərə nümunə kimi qiymətləndirilir.

Bəli, İsmayıllı da, onun kəndləri də bu cür əhval-ruhiyyədədir. Hamıda dünənə böyük hörmət, ehtiram, bu günə yüksək dəyər, sabaha nikbin baxış var.

**Rasim AMANOV,**
**"Respublika".**